Səh. 2 TOYLARDA MAKSİMUM 10 NƏFƏR İŞTİRAK EDƏ BİLƏR

Səh. 4 MÜƏLLİMLƏRİN KORONAVİRUS TESTİNDƏN KEÇİRİLMƏSİ PLANLAŞDIRILIR

Səh. 2 KVEMO KARTLİDƏ TƏBİİ ARTIM AZALIB

Səh. 5 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

Səh. 3 HACI BƏKİROĞLU YAZIR...

Səh. 6 AYGÜL İSAYEVA YAZIR...

Səh. 3 MARNEULİDƏ TÜRK ƏSGƏRLƏRİNİN MƏZARLARI AXTARILIR

Səh. 7 YENİ İPƏK YOLU VƏ GÜRCÜSTAN



İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 SENTYABR 2020-Cİ İL №012 (116)


# Yeni YOL


*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*


## SEÇKİÖNCƏSİ KAMPANİYA BAŞLAYIB



Sentyabrın 1-dən Gürcüstanda parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasına rəsmən start verilib. Kampaniya 60 gün ərzində davam edəcək.

"Gürcü arzusu" Partiyasının icraçı katibi İrakli Kobaxidze bildirib ki, hakim partiya seçkilərin azad, ədalətli və sakit mühitdə keçirilməsi üçün əlindən gələni edəcək.

O, digər siyasi partiyaları seçkiqabağı kampaniya dövründə yüksək məsuliyyət nümayiş etdirməyə çağırıb.

Qeyd edək ki, ölkədə parlament seçkiləri oktyabrın 31-də keçiriləcək.

## PARLAMENT SEÇKİLƏRİ İLƏ YANAŞI BƏZİ BƏLƏDİYYƏLƏRDƏ MER VƏ SAKREBULO DEPUTATLARININ SEÇİLMƏSİ ÜZRƏ ƏLAVƏ SEÇKİLƏR DƏ KEÇİRİLƏCƏK

Mərkəzi Seçki Komissiyasının (MSK) qərarına əsasən, oktyabrın 31-i ölkədə parlament seçkiləri ilə yanaşı mer və sakrebulo deputatlarının seçilməsi üzrə əlavə seçkilər də keçiriləcək.

Qərara əsasən, əlavə seçkilər 4 bələdiyyədə - Tbilisi, Telavi, Tetritskaro və Oni bələdiyyələrinin majoritar dairələrində keçiriləcək. Seçkilər 39 seçki məntəqəsində təşkil olunacaq.

Növbədənkənar mer seçkiləri isə Kaspi, Oni, Xaraqauli, Tercola və Kutaisi şəhərlərində təyin olunub. Səsvermə 254 seçki məntəqəsində aparılacaq.



Əlavə seçkilərin təyin olunması sakrebulo üzvləri və merlərin səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması ilə bağlıdır.

## GÜRCÜSTANDA KORONAVİRUSA YOLUXMA HALLARI ARTIB




Gürcüstanda koronavirusa yoluxanların sayı **2562** nəfərə çatıb. Bu haqda www.stopcov.ge saytında bildirilir.

Sentyabrın 15-nə olan məlumatlara əsasən, bugünə qədər ölkədə koronavirusdan ölənlərin sayı **19** nəfər, sağalanların sayı isə **1381** nəfər təşkil edir.

Hazırda ölkə üzrə karantin rejimində **6633** nəfər, stasionar nəzarətdə isə **836** nəfər saxlanılır.

Xaricdən müalicə üçün ölkəyə gətirilən Gürcüstan vətəndaşlarının sayı isə olduğu kimi qalmaqdadır – **41** nəfər.

## GÜRCÜSTANIN BÖYÜK ŞƏHƏRLƏRİNDƏ MƏKTƏBLƏRİN AÇILMASI TƏXİRƏ SALINDI



Tbilisi, Rustavi, Kutaisi, Zuqdidi, Qori və Poti şəhərlərində yeni dərs ilinin başlaması oktyabrın 1-dək təxirə salınıb. Bu barədə baş nazir Giorgi Qaxaria xüsusi brifinqdə bildirib.

Hökumət başçısı ölkədə koronavirusa gündəlik yoluxma sayında artımın olmasına baxmayaraq, təşvişə əsasın olmadığını deyib.

Qeyd edək ki, ölkədə bütün məktəblərdə yeni tədris ilinin başlaması sentyabrın 15-nə təyin edilmişdir.

## GİORGİ QAXARİA: GÜRCÜSTANDA KORONAVİRUSUN İKİNCİ DALĞASI BAŞLAYIR



"Gürcüstanda koronavirus pandemiyasının ikinci dalğası başlayır". Bunu ölkənin baş naziri Giorgi Qaxaria deyib.

Hökumət başçısı buna baxmayaraq, təşvişə əsasın olmadığını qeyd edərək epidemioloji vəziyyətin tam nəzarət altında olduğunu bildirib.

## TOYLARDA MAKSİMUM 10 NƏFƏR İŞTİRAK EDƏ BİLƏR



Gürcüstan hökumətinin qərarına əsasən, toy, doğum günü, yas, şənliklər və digər bu kimi kütləvi mərasimlərdə iştirakçıların sayı 10 nəfərdən çox olmamalıdır.

Qeyd edək ki, koronavirusun yayılmasının qarşısının alınması məqsədi ilə sentyabrın 10-dan etibarən Gürcüstanda açıq və qapalı məkanlarda kütləvi tədbirlərin keçirilməsi qadağan olunub.

## BEYNƏLXALQ AVİAREYSLƏRƏ MƏHDUDİYYƏTLƏRİN MÜDDƏTİ YENƏ UZADILDI



Beynəlxalq müntəzəm aviareyslərə tətbiq olunan məhdudiyyətlərin müddəti noyabrın 1-dək uzadıldı. Bu barədə Gürcüstanın Mülki Aviasiya Agentliyi məlumat yayıb.

Məlumata əsasən, məhdudiyyətlər Münhen, Paris və Riqa istiqamətləri üzrə yerinə yetirilən uçuşlara aid edilməyəcək.

Qeyd edək ki, bundan öncə ölkədə beynəlxalq uçuşlara məhdudiyyətlərin müddəti sentyabrın 30-dək uzadılmışdı.

## KARANTİN MÜDDƏTİ 8 GÜNƏDƏK EDNİRİLDİ




Gürcüstanın Dövlət Qurumlararası Koordinasiya Şurasının qəbul etdiyi qərara əsasən, Gürcüstanda karantin müddəti 12 gündən 8 günədək endirilib.

Qərara görə, karantin və ya özünütəcrid rejimində olan şəxsin 8 gündən sonra verəcəyi test neqativ çıxacaqsa o, karantin zonasını 9-cu gündə tərk edəcək və 12-ci gündə təkrar test verməli olacaq.

Qeyd edək ki, ölkədə karantin müddəti avqustun 13-də 14 gündən 12 günədək azaldılıb.

## GECƏ KLUBLARININ FƏALİYYƏTİ QADAĞAN EDİLİB

Açıq havada fəaliyyət göstərən gecə klublarının fəaliyyəti qadağan edilib. Bu haqda baş nazir Giorgi Qaxaria bildirib.

Onun sözlərinə görə, bu qərar koronavirusun yayılmasının qarşısını almaq məqsədilə qəbul olunub.

Qeyd edək ki, bu cür qadağa qapalı məkanlarda olan gecə klubları ilə bağlı qüvvədə idi.

## SEÇKİYƏ MÜDAXİLƏYƏ GÖRƏ SƏRT CƏZALAR QƏBUL OLUNUB



Gürcüstan parlamenti ölkənin Seçki Məcəlləsinə düzəlişləri sürətləndirilmiş qaydada üçüncü oxunuşda qəbul edib.

Hakim "Gürcü arzusu" Partiyasının təşəbbüskarı olduğu qanun layihəsini 81 deputat dəstəkləyib.

Müxalif Vahid Milli Hərəkat və Avropalı Gürcüstan partiyaları səsvermədə iştirakdan imtina ediblər.

Layihəyə əsasən, seçicilərin səs verməsi ilə bağlı məcburetmə, hədə-qorxu və səsvermə gizliliyinin pozulmasına görə cəzaların sərtləşdirilməsi nəzərdə tutulub.

Bu cür pozuntulara yol verən şəxslərə qarşı cərimələr və ya 6 aydan 2 ilədək ev dustaqlığı, yaxud da 3 ilədək həbs cəzası tətbiq olunacaq.

*Mənbə: report.az*

## TEATR VƏ KİNOTEATRLARIN AÇILMASI VAXTI UZADILDI



Hökumətin qərarına əsasən, son günlər ölkədə koronavirusa yoluxma hallarının artması səbəbindən teatr, kinoteatr və uşaq əyləncə mərkəzlərinin açılması noyabrın 1-dək təxirə salınıb.

Xatırladaq ki, ölkədə kinoteatrların sentyabrın 15-də, teatrların isə oktyabrın 1-də açılması nəzərdə tutulurdu.

## MÜXALİFƏT SEÇKİ BLOKU YARADIB



Beş müxalifət partiyası parlament seçkiləri öncəsi seçki bloku təsis edib.

Birliyə Vahid Milli Hərəkat Partiyası (VMHP), Respublika Partiyası, "Dövlət xalq naminə", "Biz özümüz" hərəkatları, Tərəqqi və Azadlıq Partiyası daxildir.

Siyasi təşkilatlar parlament seçkilərinə "Birləşmiş müxalifət - Güc birlikdədir" adlı blokla qatılacaqlar.

VMHP-nin rəhbəri Qriqol Vaşadze bildirib ki, yaranan yeni birlik parlament seçkilərində həlledici qələbə qazanacaq.

Qeyd edək ki, Gürcüstan parlamentinə seçkilər oktyabrın 31-də keçiriləcək.

## KVEMO KARTLİDƏ TƏBİİ ARTIM AZALIB




Bu ilin yanvar-iyun aylarında Kvemo Kartli bölgəsində təbii artım 457 nəfər təşkil edib. Bu barədə ölkənin Milli Statistika İdarəsinin ilkin hesabatında bildirilib.

Ötən ilin eyni dövrü ilə müqayisədə təbii artım 81 nəfər azalıb.

Hesabat dövründə Kvemo Kartlidə 682 nikah, 285 boşanma faktı qeydə alınıb. Nikah və boşanmaların sayı illik müqayisədə müvafiq olaraq 507 və 271 hal azalıb.

## MARNEULİDƏ BAKINI İŞĞALDAN AZAD EDƏN TÜRK ƏSGƏRLƏRİNİN MƏZARLARI AXTARILIR



Qeyd edək ki, sentyabrın 15-i Bakının erməni-bolşevik işğalından azad edilməsinin 102-ci ildönümüdür. 1918-ci ilin avqust-sentyabr aylarında Türkiyənin hərbi qüvvələri Azərbaycana Gürcüstan vasitəsilə piyada yollanıb. Hərbçilərin bəziləri Gürcüstandan keçməklə Türkiyəyə qayıdarkən vəba və digər xəstəliklərdən vəfat edib.

“Marneuli rayonunun Qızılhacılı kəndində Bakının işğaldan azad edilməsində iştirak etmiş 7-8 türk əsgərinin məzarlarını müəyyənləşdirmək mümkün olmayıb”. Bunu Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan bildirib.

Onun sözlərinə görə, rayonun Sadaxlı kəndində bir türk əsgərinin dəfn olunduğu barədə məlumatlar daxil olub: “Hazırda həmin məzarla bağlı araşdırmalar aparılır”.

Sadaxlı sakinləri Qafqaz İslam Ordusunun əsgərinin kənd qəbiristanlığında dəfn edildiyini təsdiqləyiblər. Onların sözlərinə görə, məzarın başdaşı taxtadan olduğundan uçulub-dağılıb və onun yerini müəyyən etmək çətinləşib. Həmin hərbçinin bir neçə il Sadaxlıda yaşadığı və ondan bəzi şəxsi əşyaların yadigar qaldığı da bildirilib.



Qızılhacılı ağsaqqaları kənd qəbiristanlığında 7-8 türk əsgərinin məzarlarının olduğunu iddia edirlər. Ötən ilin mayında Türkiyə səfiri kəndə səfər edərək məzarlığın olduğu deyilən yerə baş çəkib. Məzarlığın aşkarlanacağı təqdirdə onun abadlaşdırılması və xatirə lövhəsinin quraşdırılması planlaşdırılır.

*Mənbə: report.az*

## MARNEULİDƏKİ AERODROMUN MÜASİRLƏŞDİRİLMƏSİ ÜÇÜN TÜRKİYƏ 1,5 MİLYON LİRƏ VƏSAİT AYIRACAQ



Türkiyə Marneulidəki Aerodromun müasirləşdirilməsi üçün 1,5 milyon türk lirəsi ekvivalentində ABŞ dolları (təxminən 200 min) ayıracaq. Qeyd olunan məbləğ hərbi təchizata sərf olunacaq.

Gürcüstan və Türkiyə hökuməti arasında logistika sahəsində həyata keçirilmiş iki protokol ratifikasiya üçün Müdafiə və Təhlükəsizlik Komitəsinin iclasında müzakirə olunub. Komitə sədri İrakli Sesiaşvili Türkiyəyə maddi dəstəyə görə minnətdarlığını bildirib və qeyd edib ki, parlament bu kimi müqavilələrin ratifikasiyasını hər il həyata keçirir.

Qeyd edək ki, Türkiyə və Gürcüstan arasında hərbi maliyyə əməkdaşlığı haqqında razılaşma 2016-cı ilin sonunda bağlanıb.

*Mənbə: marneulifm.ge*

## KORONAVİRUSLU GÜNLƏRİMİZ



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Artıq bir neçə aydır ki, zehnimizi məşğul edən, sosial medianın gündəmindən düşməyən, kiminin gerçək, kiminin də oyun olaraq qəbul etdiyi koronavirus deyilən bir bəla ilə yaşamağa davam edirik. Bu virus demək olar ki, həyatımızı dəyişdirdi. İş həyatımızı, təhsil sistemimizi, rəsmi dairələrdəki iş prosesini dəyişdirdi. Bu xəstəlik üzündən dünyada minlərlə insan həlak oldu.

Keçən saylarımızda da bu haqda yazı qələmə almışdıq. Bu virus haqqında nələrə diqqət etməyimiz lazım olduğunu da vurğulamışdıq. Bu bəla səbəbi ilə yenidən toy, yas kimi bir çox kütləvi mərasimlərə qadağalar gətirildi. Həmçinin dünyada olduğu kimi ölkəmizdə də bəzi böyük şəhərlərdə məktəblərin təhsilə başlaması təxirə salındı. Ancaq bununla bərabər Qardabani, Marneuli və digər rayonlarda məktəblər 15 sentyabr tarixində fəaliyyətə başladı. Bu fəaliyyət əsnasında da bir çox standartlar gətirildi. Onu da qeyd edək ki, bu qayda və qanunlar da bizim və övladlarımızın sağlamlığı üçün nəzərdə tutulmaqdadır.

Elm və təhsil bir millətin yüksəlişinin və gələcəyinin güvəncidir. Bunun üçün də həzrət Peyğəmbər “Beşikdən məzara qədər elm öyrənin” buyurmaqdadır. Bu təhsil isə ancaq dünyəvi elmləri içinə almamalı, dini elmləri də əhatə etməlidir. Çünki qəlb aləminin hüzuru üçün ilahi əmrləri də bilmək məcburiyyətindədir insan.

Bir çoxlarının koronavirus səbəbi ilə tətbiq olunan distant təhsilə narazılıqlarını eşitdim. Onu da qeyd edim ki, əgər təhlükə varsa məcburən bu sistemdən istifadə edilməsi daha yaxşı olardı. Çünki Uca Allah Qurani-Kərimdə “Öz əllərinizlə özünüzü təhlükəyə atmayın! (Bəqərə, 2/195) buyurur. Əgər xəstəliyin olduğunu bilir və buna göz yumaraq distant təhsil yox əyani təhsil olmasını tələb ediriksə o zaman özümüzü təhlükəyə atmış olarıq.

İslam dini insana yüksək dəyər vermiş, onun üçün də Allah elçisi müsəlmanların əbədi xoşbəxtlikləri qədər sağlamlıqları üçün də ciddi prinsiplər ortaya qoymuşdur.

İnsan həyatında böyük əhəmiyyətə sahib olan sağlamlıq qədər xəstəlik də həyatın bir gerçəyidir. Bunun üçün də Hz. Peyğəmbər, “Allah, göndərdiyi bir xəstəliyin qətiliklə şəfasını da göndərmişdir” (Buxari, Tibb, 1) buyurmuşdur.

Hz. Peyğəmbər səhabələrinə sağlamlığın qiymətini bilmələrini və xəstələndikləri zaman müalicə olmalarını tövsiyə etmiş və “Müalicə olun. Çünki Uca Allah hər xəstəliklə birlikdə şəfasını da yaratmışdır. Ancaq bir xəstəlik müstəsna, o da qocalıqdır” buyurmuşdur (Əbu Davud, Tibb, 1). Sevimli Peyğəmbərimiz bu sözləriylə bütün xəstəlikləri də dərman və şəfaları da yaradanın Allah olduğunu, xəstəliyin yoluxmasının Allahın təqdiri xaricində bir güclə olmadığını öyrətmişdir. Xəstəliyin səbəbini təsbit edib lazım olanı etdikdən sonra şəfanı Allahın verəcəyini bildirmişdir. Çünki Şafi olan, dərdi də, dərmanını da yaradan Allahdır. Burdan da göründüyü kimi dərdi verən Allahdır deyib heç bir şey etmədən xəstəlikdən sağalmağı gözləmək lazım deyil. İlk öncə xəstəlikdən qorunmaq, əgər xəstələndinsə müalicə olunmaq lazımdır. Xəstələnən kimsə müalicə olunmadan sağalmağı gözləməməlidir. Gərək sən hərəkət edəsən ki, Allah da sənə şəfa versin.

# 2021-2022-Cİ TƏDRİS İLİNDƏN SİNİF JURNALLARI ELEKTRON OLACAQ



“Gürcüstanın ümumtəhsil müəssisələrində şagirdlərin dərsdə iştirakının jurnal formasında təsdiqlənməsi haqqında” Gürcüstanın təhsil və elm nazirinin 2013-cü ilin 22 avqust N114/n sərəncamına dəyişiklik daxil edilib. Dəyişikliyə əsasən, 2020-2021-ci tədris ilində ümumtəhsil müəssisələri elektron sinif jurnalından istifdəyə başlayacaqlar.

“Bütün ictimai məktəblər təhsilin idarəsi üzrə məlumat sistemi tərəfindən yaradılmış platforma ilə elektron jurnaldan istifadə etməlidirlər. Əgər ictimai, yaxud özəl məktəbin müvafiq şəraiti yoxdursa (kompüter/internet) məktəb hər gün köhnə qayda ilə jurnaldan istifadə etməyə davam etməli və hər həftəsonu müəllimlər şagirdlərin iştirakı və qiymətləndirməsi haqqında məlumatı elektron jurnal portalına daxil edəcəklər. Bunun üçün ictimai/özəl məktəbin resursundan istifadə etməlidirlər (kompüter, internet)” - təhsil nazirinin sərəncamında yazılıb.

Sənədə əsasən, həmin dövr ərzində sinif jurnalı və elektron jurnalda olan məlumatlar uyğun gəlmədiyi halda üstünlük sinif jurnalındakı məlumata veriləcək.

Bundan əlavə, sənəddən məlum olur ki, növbəti tədris ilindən sinif jurnalından istifadə etmək tamamilə ləğv olunacaq və onu elektron jurnal əvəz edəcək.

“2021-2022-ci tədris ilindən Gürcüstanın ümumtəhsil müəssisələrində elektron jurnaldan istifadə etmək məcburi olsun və sinif jurnalları ləğv edilsin” - sərəncamda yazılıb.

*Mənbə: edu.aris.ge*

# MÜƏLLİMLƏRİN KORONAVİRUS TESTİNDƏN KEÇİRİLMƏSİ PLANLAŞDIRILIR



Təsadüfi prinsiplə müəllimlərin koronavirusla bağlı testdən keçirilməsi planlaşdırılır. Bu haqda Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Səhiyyə Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze hökumət iclasında bildirib.

O, virusun yayıldığı məkanlarda olmuş müəllimləri qabaqlayıcı tədbirlərə riayət etməyə çağırıb.

“Kutaisinin 32 saylı ictimai məktəbi ilə bağlı çox vacib klaster yaranır və ilk mənbə məhz bayram tədbiri ilə əlaqəlidir. Ona görə də ölkənin tədrisə başlamağa hazırlaşdığı bir halda, virusun yayıldığı məkanlara, xüsusən də Acara və Leçxumiyə səfər edən və ya istirahətdə olan bütün müəllimlərə tövsiyə olunur ki, prevensiya tədbirlərinə riayət etsinlər, 2 həftə ərzində iş yerinə getməsinlər və özlərini təcrid etsinlər. İlkin əlamətlər olan halda 112 ilə əlaqə saxlasınlar.

Həmçinin təsadüfi prinsiplə müəllimlərin testdən keçirilməsi planlaşdırılır. Həmin plan hazırlanır və həyata keçiriləcək”, - deyə A.Qamkrelidze bildirib.

*Mənbə: etaloni.ge*

# MƏKTƏBLƏRDƏ TİBB MƏNTƏQƏLƏRİNİN YARADILMASI MƏCBURİ OLACAQ



Parlamentin Təhsil, Elm və Mədəniyyət Komitəsi “Ümumtəhsil haqqında” qanuna daxil olunacaq dəyişiklikləri müzakirə edib. Dəyişikliyə əsasən, məktəb tibb məntəqəsinin fəaliyyət göstərməsi üçün müvafiq şərait yaratmağa məcbur olacaq.

Qanunun 26-cı maddəsinin birinci bəndinə altbəndlər əlavə olunacaq və ona əsasən Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri ümumtəhsil müəssisələrinin tibb heyətinin standartını təsdiq edəcək.

“COVID-19 göstərdi ki, bu aktual məsələdir və məhz kökündən həll olunmalıdır. Qeyd edək ki, nazirlikdə artıq tibb heyəti standartlarının işlənməsi prosesi aparılır”, - deyə komitə sədri Qenadi Marqvelaşvili bildirib.

Qanun layihəsinə əsasən, 2023-cü ilin 1 yanvar tarixinə qədər Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi bütün ümumtəhsil müəssisələrində tibb məntəqələrinin fəaliyyətini təmin etməlidir.

Deputatlar qanun layihəsini dəstəkləyib. Komitənin qərarına əsasən, “Ümumtəhsil haqqında” qanuna daxil olunacaq dəyişiklikləri parlament sürətli qayda ilə müzakirə edəcək.

*Mənbə: edu.aris.ge*

# AZƏRBAYCANLI MƏZUNLARA DÖVLƏT QRANTI TƏKLİF EDİLİB

Təhsil nazirinin müavini Nunu Mitskeviç bildirib ki, ali və peşə təhsili müəssisələrinə qəbul olan bəzi tələbələr təhsil üçün dövlət qrantı alacaqlar.

Onun sözlərinə görə, bu il ilk dəfə olaraq sosial proqramla bağlı qeydiyyat yalnız onlayn qaydada “socreg.mes.gov.ge” portalında aparılacaq.

Müraciətlərin qəbuluna sentyabrın 7-dən başlanılıb və proses sentyabrın 28-dək davam edəcək. Qeydiyyat üzrə təlimat və tələb olunan sənədlər barədə məlumat nazirliyin saytında yerləşdirilib.

“13 kateqoriyaya aid olan tələbələrə dövlət qrantı əldə etmək imkanı yaradılıb. Bu kateqoriyalardan birinə tədrisi Azərbaycan dilində olan məktəblərin məzunları daxildir”, - deyə N.Mitskeviç bildirib.

Səhifəni hazırladı: ***Aynurə ƏLİYEVA***

# MÜƏLLİMLƏR MƏCBURİ TƏLİMLƏR ÜÇÜN PUL ÖDƏYƏCƏKLƏRMİ?



**Müəllimlərin peşəkar inkişafının yeni sxeminə əsasən, baş, aparıcı və mentor müəllimlərin peşəkar inkişafı istiqamətində məcburi təlimlərin keçilməsi müəyyən edilib:**

- Baş müəllim minimum 20 saat təlim keçəcək;
- Aparıcı müəllim minimum 12 saat təlim keçəcək;
- Mentor müəllim minimum 6 saat təlim keçəcək;

*Bəs müəllimlər üçün təlimlər ödənişlimi olacaq? Məcburi təlimlərdə iştirak etməyən müəllimləri nə gözləyir? Bu məsələ ilə bağlı Pedaqoqlar və Alimlər Azad Həmkarlar İttifaqının rəhbəri Maia Kobaxidze danışıb:*

**- Məcburi təlimlər nə zaman başlayır, ödənişlidirmi və hansı günlərdə keçiriləcək? Qeyd olunan təlimlərin pedaqoqlar üçün şənbə-bazar günü keçirilməsi mümkündürmü?**

- Hələlik detallar haqda danışa bilmirəm, bu yenidən baxış keçirilməli mövzulardır. Yalnız onu qeyd edə bilərəm ki, dərs prosesinə mane olunmamalıdır və bu, qanunla tənzimlənib. Bundan irəli gələrək heç bir treninq iş saatlarında təyin olunmayacaq.

2010-cu ildən, pedaqoqların sertifikatlaşdırılması başlayan zaman bizim təşkilatın tələbi o idi ki, pedaqoqların ixtisasartırmasını dövlət təmin etməlidir. Müvafiq olaraq pulsuz treninqlərlə təminetmə dövlətin öhdəliyidir. Bundan irəli gələrək dövlət məcburi treninq keçməyi tələb edirsə biz bu halda pedaqoqun pul ödəməsinə qəti qarşıyıq. Dövlət məcburi keçilməli olan treninqlər təşkil edirsə, bunların hamısını özü təmin etməlidir.

**- Özəl məktəb müəllimləri üçün bu təlimlər pulludurmu?**

- Bu halda məsələ peşəkar inkişafa və ixtisasartırmaya aiddirsə özəl məktəb özü pedaqoqların hazırlanması məsələsini təmin etməlidir. Gürcüstan məktəblərinin belə imkanı yoxdur və bu sistemin əsası qoyulmalıdır ki, məktəb özü müəllimin hazırlanmasını həyata keçirsin. Mən çox sayda özəl məktəb bilirəm ki, dövlət tərəfindən verilmiş vauçer uşağın təhsilinə deyil, kommunal vergiyə, icarəyə, məktəbin maddi-texniki baza ilə təchiz edilməsinə istifadə olunur. Bundan irəli gələrək özəl məktəb pedaqoqun hazırlanmasını təmin etmədidir. İctimai məktəb isə əgər dövlət pedaqoq üçün məcburi təlim təşkil edirsə bunların hamısını özü həyata keçirməlidir.

**- Müəllimlər təlimlərdə iştirak etməsələr nə baş verir?**

- Bu halda direktorun hüququ var ki, pedaqoqla aşağı statuslu müqavilə bağlasın.

Belə bir qeyd var idi ki, ictimai məktəb direktorunun müəllimlə aşağı statuslu müqavilə bağlamaq hüququ var və biz buna etiraz etdik. Müəllimlər Evi, onun rəhbərliyi bizi dəstəklədi. Sonra nazirliyə öz baxışlarımızı təqdim etdik və həmin normaya əlavə olundu – “direktorun yazılı təsdiqi əsasında” – bu bizim üçün prinsipial şəkildə vacib idi, çünki belə halda direktorun qərarı daha obyektiv olacaq. Direktorun yazılı təsdiqi əsasında daha çox berketimiz olacaq ki, etiraz edək və direktorun sübutundan irəli gələrək hətta məhkəməyə müraciət edə bilək. Çünki belə bir vəziyyətdə müəllim status əlavəsindən zərər görür, təlimlərdə iştirak etməsə də statusu əlindən alınmayacaq, amma ola bilsin, məsələn, peşəkar standartları qane etməzsə mentor müəllimlə baş müəllim müqaviləsi bağlansın.

*Mənbə: etaloni.ge*

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## YUMRUQ DAVASI

*(əvvəli ötən sayda)*

İkinci kütləvi əyləncə yumruq davası idi. Xan oyunu tarixin uydurmasıdırsa, yumruq davası fiziki məşqdir. Yumruq davası bizə xas olan Tiflis adətidir. Diqqətəlayiq haldır ki, başqa millət (ingilis boksunu istisna etməklə) yumruğu sevmir. Məs., şilləni daha çox bacarır. Qaraçoxelilər də şilləni sevir, fəqət əlahiddə hallarda, məs., amkro (həmkar-M.M.) bayramında. Belə ki, qaraçoxeli ağıl dərsi vermək üçün yalnız "kor şillə"dən istifadə edir. (Şillə - belinə ehmalca vurmaqla). Yumruq davası zamanı isə təkidlə bir-birinin üzərinə yeriyirdilər. Əvvəlcə bir yumruq davakarı bir əli ilə yumruq vurardı, əgər qarşıdakı ona dəyən bu bir yumruqdan zəif görünürsəydi, səndələsəydi, onda ayaqda durması üçün ikinci tərəfdən ikinci yumruğu da vururdu və sonra hər iki əli ilə yapışırdı - onu silkələyir, qamətini düzəldir və yenə də döyüş sınağı başlayırdı.

Ürəklərinin qurdunu öldürmək üçün qoçların, xoruzların və dəvələrin döyüşünə meyl edənlər də var idi. (Köhnə vaxtlar Bakıdan nefti dəvələrlə gətirirdilər. Tiflisin tövlə sahibləri dəvə döyüşlərini idarə edirdilər. Dəvələr boyunları ilə döyüşürdülər). Ən çox yayılanı qoç döyüşü idi. Yarış həvəskarları erkək toğlunu evdə saxlayırdılar. Ona xüsusi qayğı göstərərək yaxşı bordayırdılar. Onu zəncirlə bağlayırdılar ki, heç kimi vurmasın. Qoç döyüşü zamanı onu arpa ilə meyxoş edirdilər. Boğazından rəngli muncuqlardan ibarət boyunbağı asırdılar. Geriyə əyilmiş buynuzlarının uclarını ehmalca yonurdular. Xoruzların döyüşdürülməsi daha çox dükanların önündə olurdu, qoçların döyüşdürülməsi isə geniş məkanda. Döyüş yerinə sahibləri qoçlarını "drojkalar" ilə (yüngül fayton-M.M.) aparırdılar. Yanı ilə saysız-hesabsız maraqlanan camaat gedirdi. Əvvəlcə məşvərət aparırdılar, sonra döyüşdürürdülər. Məğlub olan qoçun sahibi hirsənmiş halda kef çəkirdi. Əgər döyüş tərəflər arasında məğlubiyyət nəticələrini vermirdisə, onda qoç döyüşü bəzən növbəti bazar gününə təxirə salınırdı. Qoç döyüşünə onların sahibləri rəhbərlik edirdilər. Əksər hallarda qoçların döyüşü çox gərginləşirdi. Qanunsuzluq da baş verirdi (Məs., sahibi öz qoçunun zəncirini açırdısa, bu zənciri qarşıdakı qoçun üzünə vururdusa, buna "qoçun zay edilməsi" adını verirdilər). Bu zəmində bebutlar da (fars mənşəlidir, böyük, qatlanmayan bıçaq-M.M.) fırladılıb. Sonu hər halda bir idi: Döyüşü bitirəndən sonra hamı Kürün sahilindəki çarxlar yanında oturur və dostcasına kef edirdi.

Lakin həqiqi yumruq davası daha çox diqqət çəkən və daha mühümdür.

Göhnə vaxtlar Sioni məbədi şəhərin iki yumruq davakarı hissəsinin sərhədi hesab olunurdu – Şimal və Cənubun. Yumruq davakarı sərhədi eləcə də Orta bazar kürkçülərinin emalatxanasına qədər idi. Yumruq davakarlarının "tabunu"nu (qədim gürcü sözüdür, dəstə, qrup, məiyyət mənasını verir-M.M.) Kürün ikiyə böldüyü hal da olub.

Yumruq davası müxtəlif yerlərdə: Zərrafxana yaxınlığında, indi baqqalxananın olduğu yerdə (Metexi qalasının yuxarı hissəsi), cəbbəxana yaxınlığında, üzdəniraq "taun xəstəliyinə tutulmuşların dərəsində", "Bostan arabalarında" (köhnə tamojnı məhəlləsi), Avlabardan o yana, indi kazarmaların olduğu "Naxır məhəlləsi"ndə, daha tez-tez isə Sioni küçəsində, Abbasabad və Kolortağı (Girdə məhəllə-M.M.) meydanlarında, eləcə də Moğnisi kilsəsinin yaxınlığında olan küçədə, Nəbatat bağının yuxarısında, şəlalənin başında və Mamadavidin əvvəllər məhv edilmiş yer olan bərzəxi yaxınlığında.



Yumruq davasına nə elan lazım idi, nə də çapar göndərmək.

Yumruq davası bazar günləri, Ğvelierinin son günlərində, eləcə də Natliğebanın (Ən mühüm xristian bayramlarından biri-M.M.) ikinci günündə keçirilirdi, ölülərin ruhunun yad edilməsinə görə, bu zaman bütün dükanlar bağlı idi. Ən böyük yumruq davası – bədnam "Avlabar yumruq davası" Kviratsxovloba (Pasxanın növbəti həftəsi-M.M.) günü, bu adı daşıyan kilsənin yaxınlığında keçirilirdi.

Yumruq davası oğlanların yarışı ilə başlayırdı. Sonra 18-20 yaşlı gənclər bir-birilə mübarizə aparırdılar. Onların arxasınca 25-30 yaşlı igidlər gəlirdilər. Döyüş gərginləşəndə isə hər iki düşərgədən: "Azarkeş!" "Azarkeş!" nidaları eşidilirdi və ruhlanan vüqarlı və təcrübəli pəhləvanlar artıq həqiqi yumruq davasına başlayırdılar.

On-onbeş dəqiqədən sonra yumruq davakarlarının taleyi artıq həll olunurdu: Döyülmüş və əzilmiş yumruq davakarları meydanı tərk edirdilər və yavaş-yavaş geri çəkilirdilər (Bədnam "qurulmuş yumruq davası" isə çox hallarda iki-üç saat davam edirdi). Lakin mübarizə bununla bitmirdi: "Məğlub olanlar daşa, kərpicə, taxta qırıqlarına və əllərinə keçən hər şeyə əl atırdılar. Buna görə çox hallarda qonşu evlərin qapı-pəncərələri, eyvanları, şüşəbəndələri və sair qırılırdı. Çoxlu yumruq davakarını döyüş meydanından yaralı aparırdılar. Çox hallarda aralarında yüksək vəzifə sahiblərinin də olduğu iştirakçılara dəyirdi" *(С.Кишмишев "Тифлис 40-х годов", "Казак", 1894 г. № 60).*

Belə bir yumruq davası 1851-ci il fevralın 4-də baş verdi. Səs yayıldı ki, bu yumruq davasında 300 nəfər yaralanıb və beş nəfər də ölüb. Buna görə bütöv bir rəsmi yazışma da baş verdi *(Elə bu müəllifin verdiyi məlumata görə, "Aleksandr Düma özünün "De Paris a Actorgan"adlı kitabında yumruq davasını daha artıq xarakterik təsvir etmişdir. Bu yumruq davasında zədələnənlər arasında Aleksandr Dümanın özü də olub (Elə orada))* və Zaqafqaziyanın ali idarəsi mərkəzi hakimiyyətə izahat təqdim etməyə məcbur oldu. Çarın müavini (canişini-M.M.) Vorontsovun şərhindən sonra I Nikolay belə bir əmr verdi: "Yumruq davasına şəhər ətrafında icazə verin, lakin yumruqlardan savayı başqa silahı heç kim işlətməsin. Yumruq davasına polis nəzarət etməlidir, hansına ki, dalaşanların həddi aşdıqları vaxtlar yumruq davasını dayandırmasına icazə veriləcək" *(Акты т. X., səh. 825).*

Yumruq davasına ən başlıcası sənətkarlar çevrəsindən çıxan pəhlivanlar, bəzən də onların alverçiləri qoşulurdular.

Yumruq davası çoxsaylı iştirakçıların nidaları və hay-küyü ilə başlayırdı. Çox hallarda yumruq zərbəsi elə güclü olub ki, ətraf yerlər lərzəyə gəlib *(Bəzi yumruq davakarı camaat tərəfindən verilən əlavə adı daşıyırdı. Məs., "Karafkandoğa" – Qaya uçuran. Nəql edirlər ki, bu yumruq davakarı qayaya yumruğunu vursaydı çim parçası qopartdırardı. İkinci – Qamətli Solomona elə qoçaq imiş ki, deyilənə görə, at nalını əli ilə qatlayırmış və çöməlmiş halda yumruq davası edirmiş. Üçüncü barədə – Keçəl Stefane barəsində isə belə bir rəvayət var: Bir dəfə Sioni küçəsində yumruq davası zamanı torpaq damından qopan kərpic onun başına düşüb. Kərpic dörd yerə bölünüb, Stefane isə heç vecinə də almayıb, yuxarı baxıb və zarafatla dillənib: "Hansı yiyəsi ölmüş mənimlə beşdaş oynayır").*

Yumruq davakarı papaqsız, sinəsi açıq, çuxalarının ətəkləri qatlanmış və çox hallarda ayaqyalın da mübarizə aparırdılar. Yumruq davakarının sayına hədd qoyulmamışdır.

Yumruq davasına adi olaraq bədnam kübar şəxslər himayədarlıq edirdilər. Havadarlar atlara minirdilər, bir-birilə mübahisə aparırdılar və öz dəstəsinin pəhləvanlarını qızışdırırdılar. Bəzən "yaxşı zərbə vuran" yumruq davakarına pul da bəxşiş edirdilər.

Belə rəvayət var ki, yumruq davasında çar İrakli də iştirak edirmiş. "Yumruq davası igidliyin təlimi və məşqinin əxlaqi tədrisi idi" *("Siskari", 1869-cu il, № 3, səh.81).*

Qriqol Orbelianinin dediyi kimi:

"Di, yumruq davasında gəl, gör məni, kiməm mən!"

Rusiya üsul-idarəsinin bərqərar olunduğu ilk gündəncə, başqa adətlər arasında, yumruq davasını da bir "qorxulu oyun" olaraq qadağan etdilər. Lakin baş sərdar Sisiyanovun zamanında camaatın xahişi ilə yumruq davası yenə bərpa olundu. "Sisiyanovun damarlarında gürcü qanının axdığına görə deyil, həmçinin ona görə ki, camaat özünəməxsusluğu itirməyəydi və hərbi fəaliyyətdə təlim keçəydi" *(Акты, т. X., səh. 826).*

*(ardı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# VƏTƏNPƏRVƏRLİK ŞƏXSİ MƏNAFEYİ, MARAQLARI VƏTƏN UĞRUNDA QURBAN VERƏ BİLMƏK DEMƏKDİR



14 iyul tarixində Tovuz rayonu ərazisində gedən şiddətli döyüşdə əslən Gürcüstanın Qardabani rayonunundan olan polkovnik İlqar Mirzəyev də şəhid olmuşdur. Gürcüstan azərbaycanlıları 20 Yanvar hadisələrində də, Qarabağ müharibəsində də Azərbaycanın müstəqilliyi uğrunda, ərazi bütövlüyü uğrunda vuruşub şəhid olmuşlar. Azərbaycanda baş verənlərə biganə qala bilmərik, qanı-qanımızdan, canı-canımızdan olan bacı-qardaşlarımıza keçmişdə də, indi də, gələcəkdə də dəstək olmalıyıq. Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir. Bütöv Azərbaycan uğrunda şəhid olan Gürcüstan azərbaycanlıları üçün birinci, ikinci vətən anlayışı olmur. Nədir vətən? Haradır vətən? Anadan olduğun torpaqmı vətən sayılır? Təbii olaraq, anadan olduğun, doğulub boya-başa çatdığın yer vətən sayılır, bu bir aksiomadır, bizim üçün bu məkan Gürcüstandır. Vətən həm də sənin ana dilinin, dininin, milli kimliyinin, mədəniyyətinin, musiqinin, tarixinin, ədəbiyyatının meydana gəldiyi, təzahür etdiyi, inkişaf etdiyi, yaradılıb-yaşadıldığı məkandır. Vətən sənin fəxr etdiyin, qürur duyduğun tarixi şəxsiyyətlərin, qəhrəmanların uğrunda vuruşduğu, canından keçdiyi məkandır. Bu məkan həm də Azərbaycandır, Qarabağlı bütöv Azərbaycan. Vətən sənin özününkü hesab etdiyin, sənə məxsus olduğunu zənn etdiyin, fəxr etdiyin, fəxrlə, qürurla danışdığın, oxşamaq istədiyin şəxsiyyətləri yetişdirən yurddur. Dünya ədəbiyyatını "Xəmsə"si ilə zənginləşdirən Gəncədə anadan olan Nizami Gəncəvi mənə məxsusdur, şərqdə ilk diplomat qadın Uzun Həsənin anası Sara xatun mərd Azərbaycan xanımı kimi bizlərə örnəkdir, müsəlman şərqində ilk opera yazan Ağcabədidə dünyaya göz açan dahi bəstəkar Üzeyir Hacıbəyov mənim millətimin nümayəndəsidir, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi, Naxçıvanda anadan olmuş Cəlil Məmmədquluzadə fəxr etdiyimiz azərbaycanlıdır, Şəkidə anadan olmuş M.F.Axundov ədəbiyyatımızda, Azərbaycan ədəbiyyatında dramaturgiyamızın banisi hesab olunur, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Bakıda anadan olan Lütfizadə bizə məxsusdur, Astarada anadan olmuş tarixçi, şərqşünas alim Ziya Bünyadov, Bakıda anadan olmuş Müslüm Maqomayev və sair və ilaxır... siyahını çox uzatmaq olar. Bu dahi insanlar, azərbaycanlılar Azərbaycanda anadan olublar.

İstər ABŞ-da, istər Gürcüstanda anadan ol, sənə məxsus olan bu dəyərlərlə, bu şəxsiyyətlərlə fəxr edirsən, onlara oxşamaq istəyirsən, mədəniyyətinlə, tarixi keçmişinlə fəxr edirsən, bu mənə məxsusdur, bu dəyərləri yaşatmaq mənəvi borcumdur deyə düşünürsən. Azərbaycanda yaşayanlarla eyni dil, eyni din, eyni mədəniyyət, eyni musiqi, eyni ədəbiyyat, eyni tarix bölüşürsən və buna görə də anadan olduğun Gürcüstan kimi, Azərbaycana da vətən deyirsən. Birinci, ikinci vətən deyib ayırmırsan, necə ki, görkəmli Gürcüstan azərbaycanlıları – Nəriman Nərimanov, Əlimərdan bəy Topçubaşov, Rəşid Behbudov, maestro Niyazi, Möhsün Sənani, Abdulla Şaiq, Camal Mustafayev, Şövkət Məmmədova, Nigar Şıxlinskaya, Zəlimxan Yaqub, Şəmistan Əlizamanlı ayırmırdı, azərbaycanlı olmaları ilə fəxr etmişlər, Azərbaycanın dövlət quruculuğunda, mədəniyyətində, musiqisində, ədəbiyyatında mühüm rol oynamışlar. Şəmistan Əlizamanlının (Allah can sağlığı versin, əsgərlərimizi daha da ruhlandıran mahnılar ərsəyə gətirsin) hərbi vətənpərvərlik mövzusunda olan mahnıları Qarabağda döyüşən əsgərlər üçün günü bu gün də ilham mənbəyidir. İnsanlıq, humanistlik, yaxşılıq simvolu olan Camal Mustafayev uzun müddət Azərbaycanda yaşayıb yaratsa da öz vəsiyyətinə görə Gürcüstanda dəfn edilmişdir, bu da onun nə qədər yurdsevər, vətəninə, elinə-obasına, Borçalı mahalına, Qarayazı bölgəsinə bağlı bir insan olmasını göstərir. Təəssüf ki, bu gün Gürcüstanda özünə gürcü deyən, milli kimliyini danan, özünü Azərbaycanda yaşayanlardan fərqli millət hesab edən azərbaycanlılara da rast gəlirik. Borçalıda yaşayanları ayırıb ayrıca fərqli millət kimi təqdim edən, bununla da Gürcüstanın digər yerlərində yaşayan azərbaycanlıları da təcrid edib milləti də, mədəniyyəti də, tarixi də daha da kiçildənlərə rast gəlirik. Ən azından Borçalının fəxri Zəlimxan Yaqubdan örnək götürmək olar. Axı Zəlimxan Yaqub Azərbaycanda, Gürcüstanda, Borçalıda yaşayanları bir-birindən ayırmırdı, əksinə bu ad bizləri birləşdirir. Zəlimxan Yaqub təkcə Borçalının şairi kimi yaddaşlarda qalmayıb, onun adı daha böyükdür - Azərbaycanın xalq şairi, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, bu ad tarixdə belə qalacaqdır. Biz daha böyük mədəniyyətə sahibik, biz balaca millət deyilik, bizim ulu tarixi keçmişimiz var, fəxr etdiyimiz, qürur duyduğumuz, örnək götürdüyümüz dahi şəxsiyyətlərimiz var, uğrunda ölməyə hazır olduğumuz Azərbaycan və Gürcüstan adlı vətənimiz var.

20 Yanvarda da, Qarabağda da, Tovuz rayonu ərazisində gedən şiddətli döyüşdə də şəhidlik zirvəsinə yüksələn Gürcüstan azərbaycanlıları üçün anadan olduqları Gürcüstan da, Azərbaycan da vətəndir.

Vətənpərvərlik şəxsi mənafeyi, maraqları vətən uğrunda qurban verə bilmək deməkdir…

Vətənə olan sevgi daxildən gəlməlidir, şan-şöhrət, pul, vəzifə ilə ölçülmür. Vətənə olan sevgi elə bir hissdir ki, onun uğrunda gözüyumulu özünü təhlükəyə atmağa hazır olursan. Bu elə bir hissdir ki, səlahiyyətli, vəzifəli insanlar, dövlət məmurları səni incitsələr də, küsdürsələr də, sənə qarşı ədalətsiz olsalar da, sən vətəndən heç vaxt üz döndərmirsən. Torpaq su ilə qarışanda palçıq, qanla qarışanda vətən olur. Allah şəhidlərimizə rəhmət eləsin!

***Aygül İSAYEVA***
*İqtisadiyyat üzrə fəlsəfə doktoru*

# TƏHSİL PROSESİNİN DİSTANT HƏYATA KEÇİRİLMƏSİ QAYDALARI VƏ ŞƏRTLƏRİ TƏSDİQLƏNİB

Ümumtəhsil müəssisələrində təhsil prosesinin distant keçirilməsi və əldə olunan nəticələrin qiymətləndirilmə qaydaları və şərtlər təsdiqlənib.

Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Çxenkelinin sərəncamı ilə distant təhsil modelləri, distant təhsilə keçid və qaydasına salınmış təhsilə qayıtmağın ön şərtləri müəyyən edilib.

Distant təhsilin hər hansı modelinə keçidin ön şərti ola bilər:

a) Məktəbdə/məntəqədə/bələdiyyədə/ölkədə olan müxtəlif yoluxucu xəstəliklərdən yaranmış vəziyyət zamanı tətbiq olunan müvəqqəti məhdudiyyətlər;

b) Çətin metereoroloji/ekstremal şərtlərlə, yaxud təbii fəlakətdən yaranmış müvəqqəti məhdudiyyətlər;

c) Məktəbdə aparılan planlaşdırılmış bərpa işlərinin vaxtında yeirnə yetirilməməsi və ya təxirə salınmaz bərpa-tikinti işlərinin həyata keçirilməsi;

ç) Fənn/fənlər üzrə insan resursunun (müəllim) çatışmamazlığı;

d) Fənn/fənlər üzrə müasir innovativ təhsil texnologiyalarının əsasının qoyulması, yaxud məktəb tərəfindən başqa təsdiqlənmiş tələb olan halda.

2. Bu maddənin birinci bəndinin "a" altbəndi ilə nəzərdə tutulmuş məhdudiyyətlər Gürcüstan hökuməti, yaxud Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Məcburi Köçkünlərin İşləri, Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyi tərəfindən tətbiq edilir.

3. Bu maddənin birinci bəndinin "a", "b" və "c" altbəndləri ilə nəzərdə tutulmuş hallarda distant təshilin həyata keçirilmə dövrü haqqında qərar qəbul etmək üçün resurs mərkəzə həmin qaydanın N1 əlavəsi ilə müəyyən edilmiş ərizə forması ilə birgə təqdim etməlisiniz:

a) Bu maddənin birinci bəndinin "a" altbəndi halında – Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Məcburi Köçkünlərin İşləri, Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyi, yaxud onun müvafiq qurumunun məktəbin/məktəblərin tam bağlanması haqqında konkret vaxtın qeyd olunması ilə yazılı tövsiyəsi;

b) Bu maddənin birinci bəndinin "b" altbəndi halında – müvafiq resurs mərkəzin təsdiqlənmiş vəsatəti;

c) Bu maddənin birinci bəndinin "q" altbəndi halında – məktəbin bərpa işlərini həyata keçirəcək təşkilat və işlərə nəzarət edilməsinə görə məsuliyyət daşıyan qurumun vəsatəti, və ya özəl məktəb olduğu halda – məktəbin özünün birgə müvafiq vaxtı qeyd etməklə təsdiqlədiyi müraciət.

4. Bu maddənin birinci bəndinin "d" altbəndi ilə nəzərdə tutulmuş hallar ictimai məktəb üçün Müəllimlərin Peşəkar İnkişafı Milli Mərkəzi tərəfindən müvafiq ictimai məktəb və təhsil resurs mərkəzinin təsdiqlədiyi tələblər əsasında tətbiq olunur.

*Mənbə: etaloni.ge*

## BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN HƏCMİ ARTIB




Statistika Xidmətinin məlumatına əsasən, Gürcüstanda həyata keçirilən birbaşa xarici investisiyaların həcmi 2020-ci ilin II rübündə 237.8 milyon ABŞ doları təşkil edib. Bu isə 2019-cu ilin II rübünün dəqiq göstəricilərindən 0,5 faiz çoxdur.

2020-ci ilin II rübündə ən böyük birbaşa investor ölkələrin siyahısında birinci yeri 24,8 faizlə Birləşmiş Krallıq, ikinci yeri 22,4 faizlə Niderland, üçüncü yeri isə 13,3 faizlə Türkiyə tutur.

Üç böyük sektorun töhfəsi (həyata keçirilmiş birbaşa xarici investisiyalara əsasən) 2020-ci ilin II rübündə 57 faiz təşkil edib.

Ən çox birbaşa xarici investisiya maliyyə sektorunda həyata keçirilib və 78.1 milyon ABŞ dollarına çatıb. Bu isə ümumi birbaşa investisiyaların 32,9 faizidir. İkinci yerdə 29.6 milyon ABŞ dolları ilə energetika sektoru, üçüncü yerdə isə 27.7 milyon ABŞ doları ilə tikinti sektorudur.

*Mənbə: bpn.ge*

## NƏQLİYYAT VASİTƏSİ İLƏ DAŞINAN YÜKLƏRİN HƏCMİ ARTIB



2020-ci ilin yanvar-iyul aylarında ötən ilin analoji dövrü ilə müqayisədə nəqliyyat vasitəsi ilə daşınan yüklərin həcmi 600 min ton artıb.

Belə ki, 2020-ci ilin yanvar-iyul aylarında daşınmış yükün həcmi 22.2 milyon ton təşkil edib. 2019-cu ilin həmin dövründə isə bu göstərici 21.6 milyon ton olub.

Sərnişinlərin sayına gəldikdə isə, nəqliyyat vasitəsi ilə daşınmış sərnişinlərin sayı 2019-cu ilin yanvar-aprel ayı ilə müqayisədə 60.6 milyon nəfər azalıb. 2020-ci ilin ilk 7 ayı ərzində 154.8 milyon sərnişin daşınıb. 2019-cu ilin yanvar-iyul aylarında isə bu rəqəm 215.4 milyon təşkil edib.

2020-ci ilin yanvar-iyul aylarında ötən ilin həmin dövrü ilə müqayisədə dəniz limanları və terminallardakı yüklərin sayı 700 min ton artaraq 10.1 milyon ton təşkil edib, 2019-cu ilin analoji dövründə isə bu göstərici 9.4 milyon ton olub.

Limanlarda emal edilən konteynerlərin sayı isə 39,978 ədəd azalıb. Yanvar-iyul aylarında 300,785 konteyner, 2019-cu ilin analoji dövründə isə 340,763 konteyner emal edilib.

*Mənbə: bpn.ge*

## QIZIL BAHALAŞIB



Milli Statistika Xidmətinin məlumatına görə, avqust ayında ötən ilin analoji dövrü ilə müqayisədə 958 əyarlı qızılın (nişan üzüyünün) qiyməti 41,61% bahalaşıb. Qeyd etmək lazımdır ki, qızıl üzük il ərzində ən çox bahalaşan üç məhsuldan biridir. Qızılın qiyməti bütün dünyada bahalaşaraq avqust ayında rekord səviyyəyə qalxıb.

İlin başlanğıcında bir qram qızılın qiyməti təxminən 25 laridən 35 lariyə qədər bahalaşıb. Əgər ilin başlanğıcında 583 əyarlı qızılın qramı 80-85 lari idisə, bu gün 108-110 laridir. 999 əyarlı qızılın qramı isə 195-200 laridir. İlin başlanğıcında isə 160 lari idi.

*Mənbə: bpn.ge*

# YENİ İPƏK YOLU VƏ GÜRCÜSTAN



Hələ bizim eranın ikinci yüzilliyində Çindən başlayaraq Avropanın ən ucqar nöqtələrinə kimi uzanan tarixi İpək Yolu demək olar ki, min ildən artıq bir müddətdə Şərq və Qərb mədəniyyətlərini bir-birinə bağlayan əsas yol olmuşdur. İpək Yolu adından da göründüyü kimi əsas daşınılan yükü ipək məhsulları olmaqla əlavə müxtəlif cür məhsullarla Avropa və digər ölkələrin tələbatını ödəyən, qədim dünyanın ən mühüm ticarət kanalı idi. Düzdür, Qafqaz bu yolun əsas hissəsində yerləşməsə də, zaman keçdikcə İpək Yolu marşrutunun kiçik ticarət karvanları Cənubi Qafqaz şəhərlərinə gələrək burada ticarətlə məşğul olur, yerli bazarlarda öz məhsullarını tanıdırdılar. Sözsüz ki, bu şəhərlərdən biri də məhz Tiflis şəhəri idi. Tiflisdəki köhnə karvansaraylar da bunun bariz sübutudur. Zamanla İpək Yolu tacirləri üçün Tiflis artıq dayacanaq məntəqəsi halına gəlmişdir. Ancaq 15-ci əsrin sonu Amerikanın və yeni dəniz yollarının kəşfi bu ticarət yolunun əhəmiyyətini azaltdı və 16-cı əsrdə tamamilə süquta uğratdı.

Bugünə kimi bu tarixi yolun bərpasına çalışılmış, bu yolun üzərində yerləşən ölkələrlə müxtəlif ticarət müqavilələri imzalanmış, ancaq elə də effektiv olmamış və bu cəhdlər uğursuzluqla nəticələnmişdir. Bütün bunlara baxmayaraq, günümüzdə bu yolun bərpasına daha məsuliyyətlə yanaşan və ona tələbat yaratmağa ciddi səylər göstərən Avrasiya ölkələri infrastrukturun yaradılması və qarşılıqlı əlaqələrin qurulmasına yönələn “Bir kəmər, bir yol” adlı yeni iqtisadi inkişaf strategiyası həyata keçirirlər. 2013-cü ildə başlayan bu layihə artıq 7-ci ilini tamamlamışdır. Bu meqalayihəyə indiyədək 300 milyard dollardan çox sərmayə qoyulmuşdur və layihənin əsas qurucu üzv ölkəsi isə Çindir. Digər bir adıyla Yeni İpək Yolu adlandırılan bu ticarət kanalı sadəcə qədim İpək Yolunun bərpasını deyil, həmçinin Çindən başlayan yeni bir dəniz yolu ilə Qərbə yönələn ticarət marşrutunu qurmağı planlaşdırır. Bu layihə haqqında ilk dəfə Çin prezidenti Qazaxıstana rəsmi səfəri zamanı bəyanat vermişdir. Çinin dövlət başçısı öz çıxışı zamanı bu layihənin bir hissəsinin Qazaxıstan, Azərbyacan və Gürcüstanı əhatələyəcəyini, Çinin yeni infrastruktur layihələrinin reallaşdırılması üçün adı çəkilən ölkələrə birbaşa sərmayə yatıracağını bildirmişdir. Bu isə Qazaxıstan başda olmaqla Orta Asiya, Yaxın Şərq və Cənubi Qafqaz ölkələrinin bu yeni layihəyə maraqlarının artmasına səbəb oldu. Elə həmin il Azərbaycan, Gürcüstan və Türkiyə ortaq başlatdıqları Bakı-Tbilisi-Qars dəmir yolu xəttini gündəmə alaraq, inşaat işlərinin sürətləndirilməsi haqqında bir çox görüşlər keçirildi.

Yeni İpək Yolu layihəsi ümumilikdə beynəlxalq təşkilatlar da daxil olmaqla 70-ə yaxın tərəfdaşa malikdir və bugünə kimi uğurla davam etdirilməkdədir. Avropa İttifaqı da həmçinin birbaşa olmasa da müşahidəçi qismində görüşlərdə iştirak edir.

“Bir kəmər, bir yol”un dəstəkçiləri çox olsa da, əleyhdarları da vardır. Məsələn, Çin rəsmiləri ayrı-ayrılıqda Polşa, Yunanıstan, İtaliya və Lüksemburq kimi Avropa İttifaqına üzv olan dövlətlərlə layihə haqqında razılığa gəlsələr də, əsas təşəbbüskarın Qərbin ən böyük iqtisadi rəqibi – Çinin olması bu layihəyə soyuq baxmalarının baş səbəbidir. Çünki Yeni İpək Yolunun işə salınması Qərbin nəzarətdə saxladığı öz ticarət kanallarına tələbatın zəifləməsinə və yenidən İpək Yolu marşrutunun rəqibsiz ticarət yolu olmasına gətirib çıxaracağı qənaətindədirlər. Bundan əlavə, bir neçə tərəfdaş ölkə də Çinin infrastruktur layihələrində yalnız Çin şirkətlərinin, əksər işçilərinsə çinli olmasından narahatlıqlarını bildirmişdirlər.

Bütün bunlara rəğmən Avropa İttifaqı və Çin Cənubi Qafqaz ölkələrinə, o cümlədən Gürcüstana liman və yolların salınması ilə bağlı yardımlar göstərirlər. Çünki Batumi və Poti kimi liman şəhərləri Çindən gələcək yüklərin dəniz yolu ilə Avropaya, eləcə də əks istiqamətdə daşınması üçün ən qısa yollardan biri hesab olunur. Gürcüstan hökuməti də limanların ölkə iqtisadiyyatı üçün əhəmiyyətini dərk edir və məhz buna görə də 2016-cı ildə Gürcüstan yeni liman şəhəri – Anaklianın yaradılmasına qərar verdi. Bu təşəbbüsü Avropa ölkələri də dəstəklədilər və inşaatın başlandığı andan yatırımlar etməyə başladılar. Anaklianın Qara dəniz sahilində ən böyük limanlardan biri olacağı və artıq bu ilin dekabr ayında istifadəyə veriləcəyi gözlənilir.

Hər bir addımını çox dəqiqliklə hesablayan Çinin rəhbərlik etdiyi bu layihə üzv ölkələr də daxil olmaqla hər il 900 milyard dollar gəlir gətirəcəyi gözlənilir. Bu da Gürcüstan üçün əlavə gəlir və daha böyük imkanlar deməkdir. Təbii ki, bu imkanlardan düzgün istifadə edildiyi təqdirdə.

***Səlahəddin PİRİYEV***
*Tbilisi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin tələbəsi*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 SENTYABR
2020-Cİ İL
№012 (116)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ŞENGEN ZONASINA VİZASIZ SƏFƏR QAYDALARI SƏRTLƏŞDİRİLİB




Gürcüstan parlamenti ölkə vətəndaşlarının Şengen zonasına səfərlə bağlı yeni qaydaların yer aldığı qanun layihəsini üçüncü oxunuşda qəbul edib.

2018-ci ildə hazırlanan sənədi 74 deputat dəstəkləyib.

Yeni sərt qaydalar Avropa İttifaqı ölkələrində sığınacaq axtaran Gürcüstan vətəndaşlarının sayının artması səbəbindən hazırlanıb.

Qəbul olunan qanuna əsasən, Gürcüstan vətəndaşlarının biometrik pasportu yoxdursa, o, ölkədən buraxılmayacaq. Pasport 10 il müddətinə verilməli və vətəndaşın vətənə qayıtması zamanında etibarlılıq müddətinin başa çatmasına ən azı 3 ay qalmalıdır.

Gürcüstan vətəndaşının geri qayıdış bileti və ya mehmanxana bronu, digər sənədlər və Şengen zonasında həmin şəxsi qəbul edəcək insanın dəqiq ünvanı olmasa onun ölkə ərazisini tərk etməsinə qadağa qoyula bilər. Qadağaya səbəb kimi sığortanın, həmçinin pul vəsaitinin kifayət qədər olmaması da göstərilə bilər.

Düzəlişlərdə Gürcüstan vətəndaşlarına xarici ölkədə sığınacaq alması üçün pul müqabilində saxta arayış və sənədlərin verilməsinə görə cinayət məsuliyyətinin tətbiqi də nəzərdə tutulub. Bu cür qanunsuz əməllərə qarşı 2 ildən 6 ilədək, ağırlaşdırıcı hallarda 3 ildən 8 ilədək, qrup halında törədiləcək qanun pozuntusuna qarşı isə 7 ildən 10 ilədək azadlıqdan məhrum etmə cəzası tətbiq olunacaq.

Qanun prezident imzalayandan sonra qüvvəyə minəcək.

Qeyd edək ki, 2017-ci ilin martından Gürcüstan vətəndaşları Şengen zonasına turizm, işgüzar və qonaq olmaq məqsədilə vizasız qısamüddətli (90 gün) səfər edə bilirlər.

*Mənbə: report.az*

## TEXNİKİ BAXIŞDAN KEÇMƏDİYİNƏ GÖRƏ AVTOMOBİL SAHİBLƏRİNƏ 80 MİNDƏN ARTIQ CƏRİMƏ YAZILIB



Gürcüstanın Daxili İşlər Nazirliyi (DİN) yol hərəkəti qaydalarını pozduğuna görə 2020-ci ilin I və II rübündə aşkarlanan qayda pozuntularının sayı haqda statistik məlumatı yeniləyib.

Statistikaya əsasən, hər iki rüb ərzində DİN texniki baxışdan keçmədiyinə görə nəqliyyat vasitəsi sahiblərinə 80 529 cərimə yazıb.

Ən çox qayda pozuntusu Tbilisi və Acarada qeydə alınıb. Tbilisidə sürücülərə ümumilikdə 63 232, Acarada isə 4 630 cərimə yazılıb.

Qeyd edək ki, 1 yanvardan 31 iyul tarixinə qədər 463 026 nəqliyyat vasitəsinə texniki baxış keçirilib. Onlardan 269 918-i texniki baxışdan keçməyib, 191 570-i isə texniki baxışdan uğurla keçib. Bundan əlavə, 1171 nəqliyyat vasitəsinə durumuna görə hərəkət etmək qadağası qoyulub.

*Mənbə: bm.ge*

## BU İL GÜRCÜSTANDA QİÇS-DƏN 99 NƏFƏR DÜNYASINI DƏYİŞİB



Gürcüstanın İnfeksiya patologiyası, QİÇS və Kliniki immunologiya üzrə Elmi-Praktik Mərkəzinin məlumatına əsasən, bu il Gürcüstanda QİÇS-ə 372 yeni yoluxma halı qeydə alınıb.

Sentyabrın 2-nə olan məlumata əsasən, ölkədə bu xəstəlik daşıyıcılarının ümumi sayı 8 474 nəfərdir. Onların 6 326-sı kişi, 2 148-i isə qadındır.

Xəstələrin böyük əksəriyyəti 29-39 yaş qrupuna daxildir. Xəstəlik 4 340 nəfərdə inkişaf edib, 1 734 nəfər isə dünyasını dəyişib.

Yoluxma hallarının böyük əksəriyyəti (3 148) Tbilisidə qeydə alınıb.

2020-ci ildə Gürcüstanda 99 nəfər QİÇS-dən vəfat edib ki, onların 79-u kişi, 20-si isə qadındır.

## AVQUST AYINDA GÜRCÜSTANA PUL KÖÇÜRMƏLƏRİ ARTIB



Gürcüstan Milli Bankının məlumatına görə, 2020-ci ilin avqust ayında ötən ilin analoji dövrü ilə müqayisədə Gürcüstana pul köçürmələri 25,8% artıb.

Məlumata əsasən, 2020-ci ilin avqust ayında ölkəyə göndərilən pulun həcmi 184.2 milyon ABŞ dolları (566.2 milyon lari) təşkil edib. Bu isə 2019-cu ilin avqust ayının analoji göstəricisindən 25,8% çoxdur.

**Gürcüstana ən çox pul köçürmələrinin həyata keçirildiyi 10 ölkə:**

- Rusiya - 34.94 milyon dollar;
- İtaliya - 27.95 milyon dollar;
- ABŞ - 22.05 milyon dollar;
- Yunanıstan - 20.64 milyon dollar;
- İsrail - 14.30 milyon dollar;
- Türkiyə - 9.65 milyon dollar;
- Azərbaycan - 6.96 milyon dollar;
- Almaniya - 6.86 milyon dollar;
- İspaniya - 5.11 milyon dollar;
- Fransa - 2.81 milyon dollar;

“2020-ci ilin avqust ayında Gürcüstandan xaricə 23.1 milyon ABŞ dolları (71.1 milyon lari) göndərilib. Bu, 2019-cu ilin avqustunda (19.0 mln ABŞ dolları) analoji dövrlə müqayisədə 21,5% artıqdır”- Milli Bankın yayımladığı məlumatda qeyd olunub.

*Mənbə: bpn.ge*

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.